# SİYASİ TƏHLİL METODU






Ayətullah Seyyid Əli Xamenei

İmam Xameneinin siyasi təhlil metodları mövzusunda çıxışlarının toplusu

# SİYASİ TƏHLİL METODU

رَحِمَ اللّهُ امْرَأً تَفَكَّرَ فَاعْتَبَرَ وَ اعْتَبَرَ فَأَبْصَرَ

Allah düşünüb ibrət alan və ibrət alıb aydın görən insana rəhm edər.

Nəhcül-Bəlaqğə: 103-cü xütbə

**Tərcümə edən: Əkrəm Hacızadə**

# M Ü N D Ə R İ C A T

**Birinci Fəsil**

**Siyasi Təhlilin Zəruriliyi**

1. Bir müsəlman cavan niyə siyasi təhlil qüdrətinə malik olmalıdır? --- 5
2. Necə düzgün təhlilə sahib olaq? ------------------------------------------- 6
3. “İcmal”, “şərh” və “təhlil” arasındakı fərqlər hansılardır? -------------- 7
4. Metodik siyasi təhlilin praktiki əhəmiyyəti ------------------------------- 7


**Birinci Mərhələ**

1. Tövhidi dünyagörüş --------------------------------------------------------- 9
2. Zamanın dolaşıq şəraitini dərk etmək ----------------------------------- 11
3. Dini və tarixi agahlıq ----------------------------------------------------- 11
3-1. Quran və dualarla ünsiyyət taparaq dini bilgini dərinləşdirmək -- 12
3-2. İslam Peyğəmbərinin (s) həyatını dəqiq mütaliə etmək ------------ 12
3-3. Müasir tarixin mütaliəsi --------------------------------------------- 13
3-4. Qərb tarixinin mütaliəsi ---------------------------------------------- 14
3-5. Dəyərli əsərlər oxumaq --------------------------------------------- 14
4. Mənəvi cəhətdən özünütərbiyəyə diqqət -------------------------------- 14
5. Fikir azadlığı ------------------------------------------------------------ 15
6. Anlayışda şücaət -------------------------------------------------------- 16
7. Qırmızı xətlərə diqqət ---------------------------------------------------- 17
7-1. Qanundankənar mövqelər ------------------------------------------- 17
7-2. Qohumbazlıq ------------------------------------------------------------ 18
7-3. Vəhdəti pozan mövqe tutmaq ---------------------------------------- 18
7-4. Aramlığı pozacaq mövqe tutmaq --------------------------------------- 19
7-5. Düşməni sevindirən mövqe ------------------------------------------- 19


**İkinci Fəsil**

**a) Tələblər**

1. Geniş baxmaq (Reallıqları görmək) -------------------------------------- 21
2. İdeallar (ali hədəflər) və reallıqlar arasındakı əlaqəyə diqqət -------- 22

3. Vəzifə və nəticə arasındakı əlaqəyə diqqət ------------------------------ 23
4. Addım üçün ehtiyac olan anı tanımaq ------------------------------------ 24
5. Təhlildə zəif nöqtələr və üstün cəhətlərə diqqət ------------------------ 25
6. Göstəriciləri diqqətdə saxlamaq ------------------------------------------ 26
7. Termin düzəltmək ------------------------------------------------------- 27
8. Siyasi oyunbazların düşüncələrinə diqqət -------------------------------- 28
9. Haşiyə və əsas məsələləri bir-birindən ayırmaq -------------------------29
10. Bütün sözləri, tənqidləri dinləmək və ən yaxşısını seçmək ----------29
11. Düşmənin planını tanımaq ----------------------------------------------- 30

**b) Qadağalar**

1. Məsələlərə səthi yanaşmaq ------------------------------------------------ 32
2. "Həqiqət" qondarmaqdan çəkinmək ----------------------------------------- 32
3. İnadkarlıqdan çəkinmək ----------------------------------------------------33
4. Səfsətədən (məntiqi xəta) çəkinmək ---------------------------------------- 34
5. Qərəzdən və birtərəfli yanaşmadan çəkinmək ---------------------------- 35
6. İşləri asan tutmamaq ------------------------------------------------------ 36
7. Rahattələb olmamaq ------------------------------------------------------ 36
8. Tərəddüd etməmək -------------------------------------------------------- 36
9. Əsəbləşməkdən uzaq qalmaq ---------------------------------------------- 37

# ÖN SÖZ

Qarşınızdakı kitabda sizi İmam Xameneinin İslam prizmasından məsələlərə yanaşaraq, hadisələri məntiqli təhlil etmək qabiliyyəti və metodu mövzusundakı fikirləri ilə tanış edəcəyik. Siyasi təhlildə "metod" faktoru ona görə əhəmiyyətlidir ki, təhlilin ilk addımından nəticəyə qədər insana kömək olur və zehninə aydınlıq gətirir. Əlbəttə ki, bu sistemə baxış bucağımız heç də quru şəkildə, riyazi formada olan standart proses kimi deyil.

Bu kitab iki fəsildən ibarətdir. Birinci fəsildə siyasi təhlilin hazırlıq mərhələsi üçün ilkin zəruri ehtiyaclara və müqəddiməyə toxunulub. Bu fəsildə, ümumi olaraq bir mütəfəkkir və siyasi fəalın ruhi, zehni və praktiki xüsusiyyətləri sadalanıb. Əgər bu xüsusiyyətlər insanda olmasa düzgün siyasi təhlil qabiliyyətinə yiyələnə bilməyəcək.

Zərurətlər və qadağalardan ibarət iki hissəyə bölünən ikinci fəsildə isə, düzgün və sağlam bir siyasi təhlilin tələblərindən və təhlil zamanı qadağan olan yanaşmalardan söz açılıb. Qeyd edək ki, hər çıxışın sonunda tarixi də qeyd olunub.

# BİRİNCİ FƏSİL

## Siyasi təhlilin müqəddiməsi

# Siyasi Təhlilin Zəruriliyi

### Bir müsəlman cavan niyə siyasi təhlil qüdrətinə malik olmalıdır?

“Siyasi təhlil”, ictimai və siyasi elmlərdə daim müzakirə mövzusu olan mühüm məsələlərdən biridir. Həmişə hər bir ideologiya və fikir məktəbi, bu mövzuya öz prizmasından baxıb. Siyasi hadisələr zamanı özündə düşünməyi lazım bilən cəmiyyət üçün, bu hadisələr barədə düzgün düşüncə qaydası da mühüm olmalıdır. Çünki, insan siyasi və ictimai təhlilin fundamentlərinə əsasən məsələni qiymətləndirir, qərar qəbul edir və addım atır.

“Əgər bir millət təhlil gücünü itirərsə, aldanacaq və məğlub olacaq. İmam Həsənin səhabələri təhlil gücünə sahib deyildilər; hadisənin nə olduğunu və nə baş verdiyini anlaya bilmədilər. Əmirəlmöminin (ə) qəlbini qana döndərənlərin hamısı qərəzli deyildilər, əksəriyyəti, xəvaric kimi, təhlil gücünə sahib deyildilər. Xəvaricin təhlil gücü zəif idi. Əmirəl-möminin (ə) buyururdu**:** “**Bu bayrağı yalnız bəsirət və səbr əhli qaldıra bilər.**”[1] Birinci bəsirət, zəka, uzaqgörənlik, anlamaq və təhlil gücü, sonra isə səbr, müqavimət, dayanıqlılıq olmalıdır.” (15.04.1991)

[1] Nəhcül-Bəlağə 371-ci xütbə

Digər tərəfdən, media, xəbər və analiz mənbələrinin hadisələri öz baxış bucağı və maraqlarına uyğun şəkildə analiz etmələrini nəzərə alsaq, siyasi və ictimai hadisələri təhlil etmək üçün düzgün metoda yiyələnmək olduqca zəruri nəzərə çarpır. Bu məsələ, "Dini Xalqmehvərlilik"[2] (burada siyasət xalqın həyatının bir hissəsidir) nümunəsində xüsusi əhəmiyyət daşıyır.

"Bəli, hansısa diktator hakimiyyətdə bu ola bilər. Xalqın siyasətə qarışmaması, dünyanın diktator hökumətlərinə sərf edir. Onlar istəyir ki, xalq siyasi dərk, təhlil və şüura sahib olmasın. Bəs xalqının əli ilə böyük işlər görmək arzusunda olan, quruluşu xalqın sonsuz qüdrəti ilə əsas mənzilə çatmaq istəyən, xalqı ölkənin əsas dəyəri hesab edən bir hökümətin cavanları və xüsusilə tələbə cavanları siyasətdən uzaq ola bilərmi?! Bu necə mümkündür?! Alimlərin ən savadlısı belə siyasi beyinə və siyasi düşüncəyə sahib olmazsa, düşmən onu bir turşməzə konfetlə özünə tərəf cəzb edə, öz məqsədləri istiqamətində ondan sui-istifadə edə bilər. Cavanlarımız bu məsələni dərk etməlidirlər" (03.11.1993)

## Necə düzgün təhlilə sahib olaq?

Bir siyasi hadisəni düzgün təhlil etmək üçün, düzgün metod və məntiqə sahib olmaq lazımdır. Günümüzdə "Metodoloji tələb" siyasi təhlilə aid olan elmi mövzularda ciddi müzakirə mövzusudur.

Metod, terminoloji məna baxımdan üç cür başa düşülə bilər:

1- Məchulları kəşf etmək üçün bir sıra yollar.

2- Tədqiqat zamanı qaydalar sistemi.

3- Məlum olmayanların həlli üçün bir sıra vasitə və taktikalar.

---

[2] İmam Xamenei bu termini, Qərbin "demokratiya" termininin müqabilində diskursa çevirib.

## “İcmal”, “şərh” və “təhlil” arasındakı fərqlər hansılardır?

"Siyasi icmal" bir hadisənin olduğu kimi səthi şəkildə araşdırılması və ifadə edilməsidir. Əslində siyasi icmal siyasi hadisələrin necəliyinin və prosesinin dəqiq hesabatıdır və səbəblərdən söz açmır.

“Siyasi təhlil”də olan "təhlil", məsələnin mahiyyətini aydınlaşdırmaq üçün bütövlüyü fərqli hissələrə bölmək mənasındadır. Deməli, siyasi bir hadisə bütöv olaraq qəbul edilir, sonra həmin hadisə kiçik komponentlərə və hissələrə bölünür, sonra bu komponentlər araşdırılır, sonda isə komponentlərin həm bir-biri ilə və həm də bütün hadisə ilə əlaqəsinə dəqiq və məntiqli şəkildə diqqət yetirilir.

Ancaq "siyasi şərh" isə başqa bir mövzudur. Şərh, tədqiq olunan mövzudakı fərqliliklər arasındakı əlaqələr barəsində bir nəticə çıxarmaq və təhlildən hasil olan nəticələr deməkdir. Başqa sözlə, tədqiq olunanlarının arasındakı əlaqələrin təhlilinin nəticələrinə əsaslanan siyasi şərhdir və siyasi hadisələrin əlaqələri barədə mütləq nəticə çıxarır. Buna görə də "şərh" deyilərkən, məqsəd təhlildir.

Bu deyilənlərə əlavə olaraq qeyd etmək lazımdır ki, siyasi təhlilin izahdan və şərhdən fərqli cəhətlərinə görə öz metodu var və bu səbəbdən də universitetlərin yüksək səviyyəsində, sosiologiya və siyasət elminin vacib sahələrində bu mövzuya xüsusi diqqət ayrılır.

## Metodik siyasi təhlilin praktiki əhəmiyyəti

Metodik siyasi təhlil ictimai şüur, fikir və düşüncə səviyyəsini yüksəltməyə misilsiz kömək edə bilər. Fərd, bu vasitə ilə cəmiyyətdəki siyasi prosesləri düzgün və məntiqli şəkildə qiymətləndirməklə, fitnənin çirkli otmosferində və haqla batilin bir-

birinə qarışdığı şəraitdə çaşqınlığa düşməyəcək. Hər bir şəxs, tarixi rol oynayacağı və öz şəri vəzifəsinə riayət etməli olduğu bir vaxtda, siyasi təhlil metodlarından istifadə edərək münasib, dəqiq və düzgün qərarlar qəbul edə bilər.

Bu kitabda, həzrət Ayətullah-Üzma Seyyid Əli Xameneinin düşüncələri əsasında "metodik siyasi təhlil fənni" mövzusuna diqqət ayrılıb. Bu kitab həzrət Ayətullah-Üzma Seyyid Əli Xameneinin siyasi proseslərin təhlili mövzusundakı tövsiyələrindən ibarətdir. Burada bacarıqların artırılması və praktiki baxımdan "siyasi təhlil gücü" anlayışının iki mərhələsinin aydınlaşdırılmasına səy göstərilib. Belə ki, ilk öncə birinci addım olaraq siyasi təhlilin müqəddiməsi olan zehni məsələlərə diqqət ayırılıb, ikinci mərhələdə isə siyasi təhlil prosesində bir bacarıq olaraq "siyasi təhlil üsulları"na diqqət ayrılıb. Bu iki mərhələnin hər hansına diqqət etməmək, hadisələrin gedişatını anlamaq və təhlil zamanı səhvə düçar olmağa səbəb olur. Nəticədə isə mühakimə yürütmək, qərar qəbul etmək və rəftar mərhələsində çaşqınlığa səbəb olacaq.

"Siyasi təhlil metodu" kitabının üstünlüyü bundadır ki, siyasi-ictimai sahələrdə olan elmi və praktiki təcrübələrdən istifadə olunub. Bu da siyasi-ictimai prosesləri anlamağa və onların təhlil vasitələrinin, ənənəvi metodlardan daha mükəmməl və fərqli formada cəmiyyətə təqdim edilməsinə səbəb olur.

**Abbas Əlirəhbər**

**Əllamə Təbatəbai Universitetində siyasi elmlər**

**Şöbəsinin Müəllim Dosent**

# BİRİNCİ MƏRHƏLƏ

## Siyasi təhlilin müqəddimələri

İslam inqilabı rəhbərinin nəzərinə əsasən, metodik siyasi təhlilin bəzi müqəddimələri var və təhlil mərhələsindən öncə onları əldə etmək lazımdır. Zəmanənin dolanbac şəraitlərini dərk etmək, dini və tarixi agahlıq əldə etmək, tövhidi dünyagörüş, mənəvi saflığa diqqət, azad düşüncə, qırmızı xətlərə diqqət yetirmək siyasi təhlilin ilkin müqəddimə mərhələsinə aid olan ən mühüm məsələlərdir ki, qarşıda bu mövzularda rəhbərin çıxışlarına toxunulacaq.

## 1. Tövhidi dünyagörüş

İnsan tövhidi dünyagörüş seçməklə və əsaslı tövhid anlayışını dərk edərək təbiətə tövhidi prizmadan baxmaqla xüsusi bir bəsirət və agahlıq əldə edir. Tövidi və maddi baxışın arasındakı fərq budur: Tövhidi baxışda bu dünya nizamlı, qanunmərkəzli olan bir sistem, məqsədli bir təbiətdir və biz də bu təbiətin pir parçasıyıq. Beləliklə də varlığımız, yaranışımız, həyatımız məqsədlidir və hədəfsiz yaradılmamışıq. Bu, tövhidi baxışın tələbidir. Alim və Qadir olan Allaha etiqadlı olmağın mənası budur. Hədəfli yaradıldığımızı və hədəfli olduğumuzu anladığımız zaman, o hədəfi axtaracağıq. Bu axtarışın özü ümidverici bir addımdır. İnsan hədəfin nə olduğunu tapandan və anlayandan sonra, o hədəfə çatmaq üçün çalışacaq. Bundan sonra insan həyatı başdan-ayağa çalışmaq olacaq və bu çalışqanlıq məqsədli şəkildə həyata keçəcək. Bunu da bilirik ki, hədəfə gedən yolda tövhidi baxışla hər növ çalışqanlıq mütləq şəkildə insanı nəticəyə çatdırır. Bu nəticənin özünəməxsus dərəcələri olsa da, mütləq şəkildə insanı istənilən nəticəyə çatdırır. Bu yanaşma ilə daha insan həyatında məyusluğun, ümidsizliyin və məğlubiyyətin mənası yoxdur. Yaranışınız, varlığınız, həyatınız və tənəffüsünüzün müəyyən bir hədəflə mövcud olmasını bildiyiniz zaman, o hədəfi axtaracaq və

ona çatmaq üçün çalışıb-vuruşacaqsınız. Bütün varlıq aləminin yaradanı olan Allahın nəzərində isə, hədəfə çatmaq üçün çalışmağın böyük mükafatı vardır. Bu yolda çatacağınız hər nöqtədə əslində hədəfə çatmış olursunuz. Odur ki, tövhidi yanaşmada mömin üçün zərər və xəsarət təsəvvür olunmur. Quranın bu ayəsinə nəzər salaq: ***De: "Doğurdanmı siz bizlərə iki uğurdan (qələbədən və ya şəhidlikdən) birinin yetişməsini gözləyirsiniz?"[3]*** Quran məntiqi ilə bu iki uğurdan biri bizi gözləyir; ya bu yolda öldürüləcəyik, bu ən yaxşıdır. Ya da düşməni aradan götürüb məqsədə çatacağıq, bu da ən yaxşısıdır. Deməli burada ziyan və zərərə uğramaq yoxdur.

Bunun tam müqabilində maddi və materialist yanaşma dayanır. Maddi yanaşma isə insanın dünyaya gəlişini və dünyada varlığını hədəfsiz hesab edir. Ümumiyyətlə nə üçün dünyaya gəldiyini bilmir. Əlbəttə ki, dünyada özü üçün pula, arzularına, məqama, elmi dərəcəyə, fizioloji ləzzətlərə çatmaq kimi hədəflər müəyyən edir. Amma bu hədəflərin heç biri təbii və ona lazım olan əsaslı hədəflər deyil. İnsanın həyatında Allah olmayanda əxlaq da, ədalət də mənasını itirir, şəxsi mənafe və ləzzətdən başqa heç nəyin mənası olmur. İnsan şəxsi mənafeyə gedən yolda əgər ziyana düşərsə, zərər çəkərsə, məqsədinə çatmazsa və eyni zamanda bu hədəfə çatmaq üçün yenidən çalışa bilməzsə növbə ümidsizliyə, məyusluğa və hətta bəzi hallarda intihara və s. münasib olmayan vasitələrə gəlib yetişir. Maddi dünyagörüşlə tövhidi dünyagörüş arasında fərq budur.

Bu məsələ, bəsirətin ən əsaslı fundamentidir. Tövhidi baxışla hərəkət etmək müqəddəs bir mübarizədir. Silahlı mübarizə də bu cürdür.

Ümumiyyətlə, bu mübarizə bədbinlik və bədxahlıq üzərində qurulan mübarizələr kimi deyil. Burada mübarizə bunun üçündür ki, təkcə şəxsin özü yox, bütün cəmiyyət xeyirə, kamilliyə, rifaha və

[3] Tövbə surəsi: 52

yüksək insani məqamlara nail olsun. Bu yanaşma ilə həyat gözəl sima alır və bu geniş meydanda addımlamaq şirin bir işdir. Burada Allahı və hədəfi xatırlamaqla insanın yorğunluğu aradan gedir. Bu, idrakın və bəsirətin əsas kökүdür. Bu bəsirət olduqca lazımlı faktordur və özümüzü bununla təmin etməliyik. Həqiqətən də bəsirət, cəmiyyətdə bütün insani çalışmalar və mübarizələr üçün bir zəmindir. Bu, bəsirətin bir səviyyəsidir. (26.10.2010)

## 2. Zamanın dolaşıq şəraitini dərk etmək

"Bir inqilabçı dindar bəsirətli, uzaqgörən olmalı və zamanın dolaşıq məsələlərini dərk etməlidir. Məsələ sadəcə bir şeyi təsdiq, rədd və ya qəbul etməkdən ibarət deyil. Belə yanaşma ilə məsələ həll olmur, dəqiq olmaq lazımdır. İnqilabi ruhiyyəni qoruyub saxlamalı, problemlərə sinə gərməli, başqalarının tənəsindən qorxub çəkinməməli, xamlıq etməməli və eyni zamanda ehtiyatlı olmalısınız. Məyus olmayın və meydanda qalın. Amma diqqətli və ehtiyatlı olun ki, işlərinin düzgün olmadığını fikirləşdiyiniz şəxslərin rəftarı sizi əsəbləşdirməsin və məntiqsiz addımlar atmağa vadar etməsin. Məntiqə və ağıla söykənən rəftar lazımlı məsələdir." (21.10.2010)

## 3. Dini və tarixi agahlıq

Dini və ictimai məsələlərlə tanışlıqda səthi olmamalı, dərinliklərə varılmalıdır. Dini və ictimai mövzuların görünən və üzdə olan tərəfinə diqqət etmək, bu məsələlərin düzgün dərki üçün münasib metod deyil. İmam Xameneinin bu mövzuda aşağıda qeyd olunan beş tövsiyəsi, bir təhlilçinin agahlığının artması üçün olduqca vacibdir:

## 3-1. Quran və dualarla ünsiyyət taparaq dini bilgini dərinləşdirmək

Quranla ünsiyyət, Quran ayələri üzərində düşünmək, həmçinin Səhifeyi-Səccadiyyə və digər etibarlı dualar üzərində təfəkkür etmək, dini maarifin dərinləşməsində böyük rol oynayır. Dini maarifi dərinləşdirmək olduqca mühümdür. Hər bir şəxsin hisslər üzündən camaat namazlarında, etikaflarda, əzadarlıq məclislərində, hər hansı dini yürüşlərdə və s. iştirak etməsi mümkündür, amma eyni zamanda bu maarif onun canının dərinliklərində olmaya bilər. Belə olan halda görürsən ki, bir dumanlı şəraitdə, bir hadisədə və bir döngədə yerindən oynayır. Səbəb də qeyd olunan məsələdir. Biz bunun nümunələrini çox görmüşük. İnqilabın əvvəllərində, inqilabçı qrupların içərisində bəziləri bizim kimi saqqalı, əbası-əmmaməsi olanlardan da daha mömin, daha mətin, dinin təəssübünü daha çox çəkən birisi kimi nəzərə çarpırdılar. Amma qeyd etdiyim kimi zaman gəldi, həssas bir döngədə təkəri yerindən çıxdı! Aydın məsələdir ki, vaxtında möhkəm tellərlə bağlanmamışdı.

## 3-2. İslam Peyğəmbərinin (s) həyatını dəqiq mütaliə etmək

Peyğəmbərin (s) həyatını millimetri ilə mütaliə etmək lazımdır. Peyğəmbərin (s) həyatının hər anı bir hadisə, bir dərs və bir insanlıq cilvəsidir. Bu 23 illik tarix bütövlükdə belədir. Cavanlarımız peyğəmbərimizin (s) həyatını düzgün və dəqiq mənbələrdən oxusunlar və nə baş verdiyini görsünlər. Bu gün ən gözəl fikirlərə, ən dəqiq yollara, ən böyük dərslərə, bəşəriyyət üçün ən şəfaverici məlhəmlərə sahib olan müşahidə etdiyiniz əzəmətli İslam ümməti, bu həyat dərsləri ilə meydana çıxdı və dünyada dərin kök atdı. Ancaq ki, haqqın bizimlə olması kifayət etmir, bu cür təsəvvürlə inkişaf edə bilmərik. Haqqın kənarında dayanıqlıq da olmalıdır. Mən, Əmirəlmömininin (ə) Siffeyn müharibəsində buyurduğu bu cümləni dəfələrlə təkrar etmişəm: *"Bu bayrağı yalnız bəsirət və səbr əhli*

***qaldıra bilər.”***[4] Yəni bu bayrağı o adam qaldıra bilər ki, ilk növbədə bəsirəti olsun, baş verənləri və məqsədi anlasın, ikincisi, səbrli olsun. Səbr - möhkəm dayanmaq və sabitqədəmlikdir. (31.07.1999)

## 3-3. Müasir tarixin mütaliəsi

Mən, siz bacı və qardaşlarıma çox tövsiyə edirəm ki, tarixlə tanış olsunlar. Tarix bir dərsdir, tarixdən çox dərslər öyrənmək və çox təcrübələr qazanmaq olar. Bir qrup insan, zamanımızda baş verənləri müstəsna bir hadisə kimi qiymətləndirməyə və bu hadisələri anlamaqda tarixdən istifadə edilməsinə mane olmağa çalışır. Bu yanlışdır. Həyatın rəngləri və yaşayış üslubları dəyişsə də, bəşər həyatınının əsas fundamentləri və cəbhələşmələri heç zaman dəyişmir. (20.04.2000)

Mən ümumiyyətlə cavanlara, xüsusilə universitet və hövzə tələbələrinə həmişə tövsiyə edirəm ki, agahlıqlarını və ümumi məlumatlarını artırsınlar. Müşahidə etdiyiniz bir çox yanlış qərarların səbəbi məlumatsızlıq üzündəndir. Bu günün gənc nəsli öz ölkəsinin tarixindən məlumata malik olmalıdır. Siz əziz gənclər, ixtisasınızdan asılı olmayaraq tarix boyu ölkənizin hansı mövqelər tutduğunu və bu gün ölkənizin hansı mövqedə olduğunu bilməlisiniz. Ölkəmizin cavanları İslam İnqilabının ölkəni keçmiş rejimin caynağından necə qurtardığını bilmirlər. Siz müsəlman cavanların dünyada baş verənlər barədə məlumatı digərlərindən daha çox olmalıdır. Bu günün cavanı həm uzaqgörəndir, həm də siyasətlə maraqlanır. Bunun üçün də tarix boyu baş verənlərlə bağlı qaranlıq yer qalmamalıdır. Mənim təklif etdiyim əlac yolu, kitab mütaliəsini artırmaq, tələbə cəmiyyətini düzgün və həqiqi mövzular üzərində müzakirələrə çəkməkdir. Təbii ki, özünütərbiyə, nəfsin

[4] Nəhcül-Bəlağə 371-ci xütbə

saflaşdırılması və mənəvi məsələlər olduqca geniş mövzudur, bu əhəmiyyətli mövzuya öz yerində təkid olunmalıdır. (13.03.2011)

### 3-4. Qərb tarixinin mütaliəsi

Mən sizə tarix oxumağı tövsiyə edirəm. Müstəmləkə tarixini oxumalı və bilməlisiniz ki, səliqəli paltar geyinmiş, ətirlənmiş, insan hüquqlarından dəm vuran qərblilər necə böyük vəhşiliklər ediblər. Onlar təkcə insanları qətlə yetirməyiblər, həm də insanları öz müstəmləkə siyasətləri altında saxlamaqla onları inkişafdan və inkişaf imkanlarından məhrum ediblər. Biz bu hadisələrin yenidən təkrarlanmasını istəmirik. Biz deyirik ki, yerli idarəçiliyi təşkil etmək və onu dünyaya sadir etmək üçün humanitar elmləri ciddi şəkildə öyrənin. Bu hadisə baş verərsə o zaman sərhədlərimizdən çıxan (xaricə gedən) hər bir insan ümid və söykənəcək yerimiz olacaq. (10.08.2011)

### 3-5. Dəyərli əsərlər oxumaq, təcrübəli və etibarlı insanlarla dialoq qurmaq

Xüsusilə siz cavanlar dəyərli əsərlər oxumaq, düşünmək, etibarlı və təcrübəli insanlarla dialoq yaratmaqla bəsirətsizliyi aradan aparın. Təbii ki, etibarlı və təcrübəli insanlarla dialoq təqlid və qarşı tərəf hər dediyini gözüyumulu qəbul etmək mənasında olmamalıdır. İnsanın zehnini dəlillərlə qane edə biləcək insanlar mövcuddur və İmam Hüseyn (ə) də qiyamı zamanı bu metoddan istifadə edirdi. (27.07.2009)

## 4. Mənəvi cəhətdən özünütərbiyəyə diqqət

***"Kafir olanların dostu tağutdur. Onları aydınlıqdan çıxardıb qaranlığa salar."*** [5] Tüğyan, həqiqi tağut və insanın daxilində

[5] Bəqərə: 257

Firondan daha pis olan nəfs, məqampərəstlik, həsəd, dünyapərəstlik, şəhvani istəklər gözümüzü tutarsa, həqiqətləri görə bilməyəcəyik. Gözlərinin qarşısında olan həqiqətləri görə və ayırd edə bilməyən bəzi şəxsləri müşahidə etmisiniz. 2009-cu ilin əvvəlcədən planlaşdrılmış dolaşıq fitnəsində[6] həqiqətlərin xalqın gözü önündə olmasına baxmayaraq, bir qrup insan bu həqiqətləri görə və anlaya bilmədilər. Bir ölkədə fitnəkarlar baş qaldıran zaman, məqampərəstlər qüdrətə və canlarında kök atan arzulara çatmaq üçün bir ölkənin həqiqi mənafeyinə və haqq olan yola arxa çevirirlər. Belə insanlar elə addımlar atırlar ki, xalqın ən böyük düşməni olan Qərb səlahiyyətliləri onları görən zaman şövqə gəlir və onları dəstəkləyirlər. Bu aydın bir həqiqətdir. Belə deyil ki, nur olan zaman insan o nuru görə bilmir. Amma bəziləri görmədilər, bəziləri görmürlər, bəziləri dərk etmirlər, bəziləri dəkr etsə də qəlblərinin zülməti səbəbindən həqiqətlə razılaşa bilmirlər. Bunlar hamısı insanı özünə çəkən nəfsani istəklərin əlamətləridir. Bunların hamısı bizim daxili fironumuzun əmrləri və məst olan filin özündən çıxmağı kimidir. Din insanın əlində təqva adlı bir çəkic kimidir ki, bu filin başına çırpmaqla onu sakitləşdirə bilər. Əgər bunu daxilimizdə sakitləşdirə bilsək, o zaman dünya nurlanacaq və hər şeyi görəcəyik. Əgər nəfsin ardınca getsək, görə bilməyəcəyik. (25.11.2010)

## 5. Fikir azadlığı

Ölkənin inkişafına kömək edən amil, düşüncələrin həqiqi azadlığıdır. Yəni, azad düşünmək, fikrini azad şəkildə səsləndirmək, dedi-qodudan qorxmamaq, başqalarının təşviqinə və tamahlandırmalarına fikir verməmək. (28.10.2009)

İlahi nemətlərdən biri də azadlıqdır və onun qollarından biri də fikir azadlığıdır. Fikir azadlığı olmasa ictimai, elmi, fəlsəfi inkişaf da

[6] İrandakı Prezident seçkiləri ərəfəsində

mümkün olmayacaq. Elmi hövzələrdə, universitetlərdə, mədəni təbliğ atmosferində və mətbuatda yeni fikir söyləyən insanı sıxışdırmaq ən böyük səhvlərdən biridir. İcazə verin, insanlar azad şəkildə düşünsünlər.

Əlbəttə ki, mən azadlığın yanlış başa düşülməsini, cəmiyyətə "zəhərli qaz" buraxaraq ölkənin siyasi və mədəni atmosferini çirkləndirmək üçün düşmənin əlini daxildə azad buraxmağı təsdiqləmirəm. Amma azadlığın genişləndirilməsinin və fikrin, düşüncənin və elmin inkişafı üçün meydanın azad buraxılmasının bu məsələ ilə əlaqəsi yoxdur. Bu iki məsələni bir-birindən ayırmaq və sərhədlərini müəyyən etmək üçün insanda tutum olmalıdır. Azadlıq və azad düşüncəlilik təməl prinsipləri əsasında hərəkətin əsas sütunlarından biridir. (19.06.2006)

## 6. Anlayışda şücaət

Əgər insanda şücaət olmasa, hətta məsələni anlamaqda da boşluq yaranacaq. Ümumi məsələni və xırdalığını anlamaq lazımdır. Bəzən insan məsələnin ümumi mahiyyətini anlasa da xırdalıqlarında səhvə yol verir. Dini əsasları, dini mövzuları və bu mövzulardan kənar məntiqi (yəni ümumi məsələ və xırdalığı) düzgün dərk etmək üçün şücaətli olmalı və qorxmamalıyıq. Əks halda malımızdan, canımızdan, abrımızdan, yaranmış ümumi atmosferdən, hansısa düz sözü söyləməyin əleyhimizə olacağından və hansısa ləkənin bizə yaxılacağından qorxmaq insanı fəaliyyətdən salır və düşmən qarşısında süst edir. Bəzən insan bu kimi qorxulara və bu məsələlərə diqqət ayırdığına görə məsələni düzgün anlaya və həll edə bilmir, nəticədə isə səhvə düçar olur. ***"Allahdan qorxar və Ondan başqa heç kimdən qorxmazlar"*** - bu olduqca mühüm məsələdir. Həmin ayədə Allah-Təala belə buyurur: "***Peyğəmbərlər o kəslərdir ki, Allahın göndərdiyi əmrləri təbliğ edər, Allahdan qorxar və Ondan başqa heç kimdən qorxmazlar. Allah özü haqq-hesab çəkməyə***

***kifayətdir.”*** [7] Buradan aydın olur ki, Allahın əmrlərini təbliğ etməyin və çatdırmağın şərti qorxmamaqdır. Bəziləri belə düşünür ki, əgər filan addımı atsam aldana bilərəm. Cavab: “***Allah özü haqq-hesab çəkməyə kifayətdir.”*** Mühasibəni Allahın öhdəsinə buraxın və qoyun Allah sizin üçün haqq-hesab çəksin. Əgər xalqın qərarlarından və fikirlərindən qorxunun yerinə Allahdan qorxunu qoysaq, bütün məsələlər həll olacaq. Çünki Allah-Təaladan qorxu təqvadır və bu halda Allah-Təalanın dediyi furqan (haqla nahaqqı ayırd etmə bacarığı) da gələcək: ***“Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla nahaqqı ayırd etmə bacarığını verər...”*** [8] Bu furqan təqvadan qaynaqlanır və həqiqətlərin də insan üçün aydın olması təqvanın nəticəsidir. Bu, olduqca mühüm məsələdir. Eynilə mal, can, xalqın sözü, töhmət, abır qorxusu da olduqca mühüm məsələdir. Bu, o qədər mühüm məsələdir ki, Allah-Təala peyğəmbərinə (ə) buyurur: ***Bir zaman Allahın nemət verdiyi və sənin özünün nemət verdiyin kəsə (Zeyd ibn Harisəyə): Zövcəni yanında saxla, Allahdan qorx!”– deyirdin. Allahın aşkar edəcəyi şeyi ürəyində gizli saxlayır və insanlardan çəkinirdin. Halbuki əslində qorxmalı olduğun məhz Allahdır.”*** [9] Camaatın nə deyəcəyinə, vurulacaq töhmətlərə, nə edəcəklərinə əhəmiyyət verməmək olmaz – ***“Əslində qorxmalı olduğun məhz Allahdır.”*** (24.09.2009)

## 7. Qırmızı xətlərə diqqət

Aşağıda qeyd olunanlar diqqət ediləsi bütün qırmızı xətlər olmasa da ən mühümləridir:

### 7-1. Qanundankənar mövqelər

Bəsirət əldə etmək çətin iş deyil. Hər hansı bir problemin həlli üçün ağlabatan qanuni yol tapmaq mümkündürsə və kimsə bu yoldan

---

[7] Əhzab: 39

[8] Ənfal: 29

[9] Əhzab: 37

istifadə etməyərək xalqın mənafeyinə zərbə vurursa ədalətlə baxsaq görərik ki, bu iş qınanmalıdır. Bu aydın bir məsələdir. (26.10.2010)

### 7-2. Qohumbazlıq

Siyasət və iqtisad meydanında qohumbazlıq rəftarlarına meyillilik bizim zəif tərəflərimizdən biridir. Qohumbazlıq budur ki, bir şəxsin işi barəsində verdiyimiz qərar o şəxsin işinə görə yox bizimlə olan əlaqəsinə görə olmuş olsun. Həmçinin öz yaxınlarımızdan biri səhv addım atarsa göz yumaraq bəhanələr gətirir, amma eyni səhvi bizimlə nisbəti olmayan birisi edən zaman cəzalandıraq. Eynilə əksinə, əgər öz yaxınlarımızdan biri hər hansı yaxşı iş görərsə tərifləyək və təşviq edək, amma bizə yaxın adam olmasa, xeyr. Qohumbazlıq budur. Təəssüflər olsun ki, belə rəftarlar bizim aramızda da mövcuddur. Demirəm ki, hamı belədir, amma bu hallar baş verir. (07.08.211)

### 7-3. Vəhdəti pozan mövqe tutmaq

Siyasi və digər fikri cərəyanlarda ətrafı məşğul etmək münasib deyil. Əlhəmdulillah, siz agahsınız və məsələlərin xırdalığından xəbəriniz var. Məsələn, bu gün ölkədə təəssüflər olsun ki, şəxsiyyətlər bəzən bir-birinin əleyhinə sözlər danışırlar və bunu görən xarici rəsmilərin sevincini də müşahidə edirsiniz. Onlar bütün bu baş verənləri nəzərə alaraq öz təhlillərində ixtilafın baş verməsini və arzularının həyata keçməsini sevinclə ifadə edirlər. Bu mənfi addımın davam etməsinə və genişlənməsinə icazə verməməliyik. Bu məsələdə diqqətli olmalıyıq. Addımlar məntiqə və sənədə söykənməlidir. Fikir ayrılıqları olanlar bunu sübutla ifadə etməlidir. Mən özüm məsələlərin açılmasının və şəffaflığın tərəfdarıyam. Şah rejimi ilə mübarizəmiz zamanı, o vaxtkı rejimlə mübarizə aparıb solçular və marksistlərlə fikir ayrılıqlarımız burada idi ki, biz məsələlərin

açıqlanmasının tərəfdarı idik. Onlar isə şəffaflığın əleyhinə idilər və başqa arqumentlər gətirirdilər. İnqilab prosesi köklü olaraq aydınlatma, şəffaflıq, məntiqə söykənən açıqlama əsasında və söz-söhbətdən uzaq idi. Yersiz davalar məntiqli sözün təsirini azaldır. Belə rəftarla dörd nəfər cəzb ola bilər, amma digər ağıllı dörd nəfər uzaqlaşacaq. Bizim sözümüz budur. (04.07.211)

Biz bütün dünyanı vəhdətə dəvət etdiyimiz halda, düşmənin bizim aramızda ixtilaf salmasından ehtiyatlı olmalıyıq. Qələbələrin şərti budur ki, İslam Cümhuriyyətindəki müxtəlif cinahlar bir-birinin hörmətini saxlamalı və birlikdə olmalıdırlar. (03.10.1990)

## 7-4. Aramlığı pozacaq mövqe tutmaq

Əgər bir nəfər səhv bir söz danışırsa, o şəxsə cavab vermək lazımdır, ya yox? Aydın məsələdir ki, bəli. Səhv sözə cavab verməyin öz metodu var. Amma bir nəfərin səhvini əldə bayraq edib hər yerdə bunu yaymaq özü səhv addımdır. Mən bir şəxs və ya bir təşkilat tərəfindən məsələlərin aydınlaşdırılmasının əleyhinə deyiləm. Əksinə, mən aydınlatmanın və şəffaflığın tərəfdarıyam. Ümumiyyətlə əvvəldən əsaslı strategiyalarımızdan biri də aydınlatma və şəffaflıq olub. Amma aydınlatma o demək deyil ki, biz dayanmadan daxili ixtilaf yaradan addımlar ataq. Ehtiyatlı olun, bu məsələdə hamı ehtiyatlı olmalıdır. (04.07.2011)

## 7-5. Düşməni sevindirən mövqe

İslam inqilabı, İmam Xomeyninin (rə) yolu və İslam üçün iş görən bir insan, sözləri və rəftarı ilə bu prinsiplərin əleyhinə cəhət tutduğunu görən zaman, tez ayılmalıdır. Bəziləri niyə ayılmır?

Elə ki, dünyada zülm edənlər, zülmün (Həm bu gün, həm də 100-200 il öncədən bu günədək) təcəssümü olan Amerika, İngiltərə, Fransa liderləri bunları dəstəkləyirsə, anlamalıdırlar ki, atdığı addımlarda

ciddi boşluqlar var. Bunu hiss edən insan ayılmalıdır… Görəsən “ağıl işlətmək” bəhanəsilə bu həqiqətlərə göz yummaq olarmı? Xalqın, İslamın, İslam inqilabının düşmənlərinin sizi özlərindən bilərək əl çalmaları və eyni zamanda bu vəziyyətin sizə də xoş gəlməsi və sevinməniz ağıl işlətmək deməkdir?! Bu, ağılın tam ziddinədir! Ağıl budur ki, etiqad bəslədiyinizi iddia etdiyiniz prinsiplərin əksinə olan məsələ ortaya çıxan kimi özünüzü kənara çəkərək “xeyr, mən yoxam” deyə biləsiniz.

Mən təəccüb edirəm! Gördüyünüz kimi inqilabın bərəkəti ilə ad-san qazanan bəzi insanlar bəzən elə addımlar atırlar ki, düşmənlərimiz bu addımlardan sevinir və onlara əl çalırlar, gülürlər. Bir halda ki, bu cənablardan bəziləri sıxıntı və tağut zamanında inqilaba görə bir şillə də yeməyiblər. (13.12.2009)

# İKİNCİ FƏSİL

## Siyasi təhlil fənləri

**a)** Tələblər **b)** Qadağalar

Müqəddiməni bitirərək təhlil mərhələsinə qədəm qoyduq. Hadisələrin təhlili zamanı mütləq aşağıdakı 11 məharəti icra etməliyik. Bu mərhələ iki yerə bölünür: Tələblər və qadağalar.

## a) Tələblər

### 1. Geniş baxmaq (Reallıqları görmək)

Elə reallıqlar vardır ki, əgər biz bu reallıqları öz hesablamalarımızda nəzərə almasaq mütləq şəkildə gələcəkdə nəticə baxımından səhvə yol verəcəyik. Bu reallıqları görmək lazımdır. Əgər hədəfə doğru gedən yolumuzu reallıqlarla uzlaşdırmaq istəyiriksə ( yəni həqiqətləri görək və bu həqiqətlərə əsasən addımlarımızı tənzimləyək) burada mövcud olan yanlışlıqlara yol verməməliyik. Burada yanlış addımlar mövcuddur. Bu yanlışlıqlardan biri də budur ki, reallıqların bəzilərini görək və bəzilərini isə görməyək. Bu da hesablamalarımızda səhvə düşməyimizə səbəb olan amillərdəndir. Reallıqları görmək lazımdır. (24.07.2012)

Əgər biz İslam İnqilabına və İslam Cumhuriyətinin yaranmasına hərtərəfli baxsaq, xırda məsələlər bizi yanlış təfəkkürə sala bilməz. Bəzən xırda məsələlərdə qalmaq və başlanğıcdan sona qədər gedən davamlı yola diqqət etməmək insanı azdırır. Bəzən bu səbəbdən insan yolu və hədəfi belə itirir. Demək istəmirəm ki, ümumiyyətlə xırda məsələlərə diqqət etməyək. Proqram hazırlamaq elə xırda məsələləri nəzərə almaqdır və biz bunun olmamasını iddia etmirik.

Hər-hansı bir layihə o məsələnin müxtəlif bölmələrinə diqqət ayrılaraq hazırlanır və bu da xırdalıqlara diqqət deməkdir. Sadəcə demək istəyirəm ki, məsələnin tərəflərinə diqqət etmək hərtərəfli baxışın qarşısını almağa səbəb olmamalıdır. Çünki, hərtərəfli baxış bizim üçün bir dərsdir. (03.05.2008)

## 2. İdeallar (ali hədəflər) və reallıqlar arasındakı əlaqəyə diqqət

Cavan tələbə və inqilabçı bir şəxsin inqilabın ali hədəfləri ilə olan əlaqəsi nədən ibarət olmalıdır? Belə düşünürəm ki, inqilabın hədəflərinə enerjisiz, ruhiyyəsiz, cavanlara xas olan cəsarət olmadan getmək və çatmaq mümkün deyil. Sizin bu hədəflərə olan əlaqəniz belə bir əlaqədir. Əqidəm budur ki, əgər cavanlıq gücünə xas olan düşüncə, bədən gücü, ruhiyyə, cəsarət və cürət kimi xüsusiyyətlər mövcud olmasa, biz nəzərdə tutduğumuz hədəflərə çata bilməyəcəyik. Bunun üçün də İnqilabın və İslamın hədəflərinin reallaşmasında cavanların boynuna böyük məsuliyyət düşür və onlar bu yolda böyük addımlar ata bilərlər. Əgər buna misal çəkmək istəsək deyə bilərik ki, hədəflər qülləyə bənzəyir…

Düşünürəm ki, hədəflərə çatmaq istəyən və eyni zamanda reallıqları tanıyan cavan tələbə heç bir şəraitdə hərəkətsizlik və dalana dirənmək kimi hislər yaşamamalıdır. Yəni nə şirin qələbələr və nə də acı zərbələr zamanı hədəf üçün çalışmaqdan əl çəkmək olmaz. Biz "müqəddəs müdafiə"də həm şirin qələbələri yaşamışıq və həm də acı zərbələr almışıq. Ümumiyyətlə düzgün və reallığa söykənən hədəfə doğru gedən yolda dalan deyilən bir şey yoxdur. İnsan əgər reallıqlara nəzər yetirsə, heç bir şey nəzərində gözlənilməz hadisə kimi görünməyəcək.

Mənim əziz tələbələrdən gözləntim budur ki, daim hədəflərin ardınca olsunlar. İstər sizə xoş gələn, istərsə də sizə xoş gəlməyən

hadisələr zamanı hədəfin ardınca getməlisiniz. Həqiqətləri nəzərə alaraq hədəflərin dalınca düşməyi əldən verməyin. İnqilab zamanı, müharibə şəraitində və bu illər ərzində baş verən bütün hadisələrdə də daima belə olub. Bəzilərinin müxtəlif hadisələr qarşısında mövqe tutmaları, ruhi, mənəvi və fikri vəziyyətləri hədəfə doğru hərəkətin tələbləri ilə uyğun gəlmir.

İmam Xomeyni deyərdi: "Məğlubiyyət deməyin, deyin ki, fəth edilmədi". Bəzən qələbə insana nəsib olarkən bəzi insanlar gedişatın onun xeyrinə və ürəyincə olan müəyyən nöqtəsinə çatan zaman ali hədəflərə (ideallara) tərəf hərəkət etməkdən əl çəkirlər. Bu, səhv işdir. (28.07.2013)

## 3. Vəzifə və nəticə arasındakı əlaqəyə diqqət

"Vəzifəyə əməl etmək" və "nəticəni düşünmək" arasındakı əlaqə nədən ibarətdir? İmam Xomeyni (rə) buyurur: "Biz vəzifənin ardıncayıq." Bu, o deməkdir ki, İmam Xomeyni (rə) nəticə ardınca deyildi? Necə belə bir iddia irəli sürmək olar? Qoca yaşında bu qədər çətinliklər və təzyiqlərin müqabilində çətinliklərə səbr edərək, İslam sistemini hakim etməyə çalışır və buna müvəffəq olurdusa, necə deyə bilərik ki, o, nəticə ardınca deyildi? Vəzifəyə əməl etməyin mənası budur ki, insan tələb olunan nəticəyə çatmaq üçün vəzifəyə uyğun olaraq addım atsın, eyni zamanda vəzifənin əleyhinə və düzgün olmayan addım atmasın. Bütün Peyğəmbərlərin (ə) və Allah övliyalarının (ə) etdiyi təlaşların hamısı müəyyən nəticələrə çatmaq üçün idi. Məgər demək olarmı ki, biz nəticə ardınca deyilik? Yəni deməliyik ki, nəticə hər nə olur, olsun? Əsla! Təbii ki, nəticəyə çatmaq üçün vəzifəyə uyğun addım atan insan, əgər istənilən nəticəyə çatmazsa peşmanlıq hissi yaşamayacaq və vəzifəsinə əməl etdiyinə görə arxayındır. İnsan nəticəyə çatmaq üçün vəzifəyə uyğun əməl etməsə və nəticəyə çatmasa təbii ki, peymanlıq və ziyan hissi yaşayacaq. Amma vəzifəsini yerinə yetirən, boynuna düşən

məsuliyyəti icra edən, lazım olan addımı düzgün atan, dediyimiz kimi reallıqları nəzərə alan, bu reallıqlara uyğun plan cızan və iş görən insan istədiyi nəticəyə çatmasa belə ziyan və peşmançılıq hissi keçirməyəcək. Çünki, o, öz işini yerinə yetirib. Bunun üçün də, insanın ancaq vəzifə ardınca olmasını, nəticəyə diqqət etməyinin lazım olmadığını təsəvvür etmək düzgün deyil.

Müqəddəs müdafiədə, İslamın əvvəllərində Peyğəmbərin (s) və ya bəzi İmamların (ə) zamanında olan bütün müharibələrdə vəzifəsini yerinə yetirmək üçün hərəkət edirdilər. Allah yolunda cihad bir vəzifə idi və bu meydana girmək vəzifəni yerinə yetirmək hissindən qaynaqlanırdı. Amma bu o deməkdir ki, onlar nəticə barədə düşünmürdülər? Döyüşdən öncə plan cızmırdılar? Proqram, taktika, komandirlik və hərbi sistemə malik deyildilər? Təbii ki, belə deyil. Buna görə də, vəzifəni yerinə yetirmək nəticə ardınca olmaqla heç bir ziddiyyət təşkil etmir. Sadəcə olaraq insan o nəticəni necə reallaşdıracağını tapmalı və nəticəni reallaşdırmaq üçün düzgün yollara uyğun olaraq proqram cızmalıdır. (28.07.2013)

## 4. Addım üçün ehtiyac olan anı tanımaq

Addım atmalı olduğun anı tanımaq və ehtiyacı bilmək lazımdır. Kufədə elə insanlar var idi ki, qəlbləri Əhli-Beytə (ə) və İmam Hüseynə (ə) məhəbbətlə dolu olsa da bir neçə ay gec meydana daxil oldular. Hamısı da şəhid oldular və Allah yanında mükafatları var. Amma, onların görməli olduqları iş bu deyildi. O anı tanıya bilmədilər. Aşuranı tanımadılar və zamanında addım atmadılar. Təvvabin Aşuradan sonra etdiyi işi, cənab Müslim Kufəyə girən zaman etsəydi vəziyyət dəyişərdi, hətta hadisələr başqa cür cərəyan edə bilərdi. Zamanı tanımaq və lazım olan işi ehtiyac olan anda görmək olduqca mühümdür. Vaxtı tanımaq, ehtiyacı anlamaq, münasib və ehtiyac olan zamanda meydanda olmaq lazımdır. Bu işin əsasıdır. Varlığının təsirli

olmağını və görülməsi lazım olan işi yerinə yetirmək istəyən hər bir mömin bu xüsusiyyətə malik olmalıdır. (19.01.2010)

## 5. Təhlildə zəif nöqtələr və üstün cəhətlərə diqqət

İnkişafımızı və eyni zamanda zəif cəhətlərimizi tanımalıyıq. Əgər zəif cəhətlərimizi gizlətsək, tanımasaq və unutsaq bu zəifliklər qalacaq, kök atacaq və həll olmayacaq. Bütün zəif nöqtələri və üstün cəhətləri bilməliyik. Mənfi və müsbət tərəflər, ləngimə və gecikmələr olsa da əsas odur ki, hərəkət davam edir, bu ən mühüm məsələdir. Əziz cavanlar bilməlidir ki, bu otuz iki il ərzində bəzi hallarda zəifliklərimiz və ləngimələrimiz olub. Hərəkətimiz həmişə eyni cür olmayıb. Bəzən sürətli, bəzən də yavaş hərəkət etmişik. Amma hərəkət heç zaman dayanmayıb və əsas məqsədə doğru hərəkət etmişik. Bu gün onun məhsulunu müşahidə edirik. (03.02.2012)

Bu gün dünyaya elə bir şərait hakimdir ki, bizim üçün böyük fürsətlər yaratmaq imkanına malikdir. Bu yaranan fürsətləri az bilməyək. Əgər bu fürsətləri tanımasaq, düzgün istifadə etməsək və vaxtında bu fürsətlərin arxasınca getməsək ziyana uğrayacağıq. Bəzən bir fürsəti əldən vermək özü bir təhdiddir və geriləməyə səbəb olur. Odur ki, ölkə məsələlərinə ümumi şəkildə bu nöqteyi-nəzərdən baxmağımız pis olmazdı. Təbii ki, bu ümumi baxış reallığa söykənməlidir, özümüzü səhvə düçar etməməliyik və məsələlərə birtərəfli baxmamalıyıq. Həm müsbət, həm də mənfi tərəflərimiz var və hər ikisini görməliyik. Bəzən mənfi baxış qələbə çalır. Mənfi baxışın qələbə çalmağı birtərəfli baxışdır və ümidsizliyə səbəb olur. Əksi də eynən bu cürdür. Yəni mənfi tərəfi görmədən müsbət baxışın qələbə çalması da azdırıcıdır və insanda yalançı razılığın yaranmasına gətirib çıxardır. Bu da düzgün baxış deyil. Müsbət cəhətlərin yanında mənfi cəhətləri də görmək lazımdır. Əgər ölkənin hazırkı vəziyyətini düzgün şəkildə ələ gətirmək istəyiriksə, müsbət və mənfi cəhətləri bir-birinin kənarında müşahidə etməliyik. Mənim

xahişim budur ki, məsul şəxslər, elita, universitet və hövzə bu məsələ üzərində işləsinlər. (07/08/2011)

## 6. Göstəriciləri diqqətdə saxlamaq

Mən dəfələrlə demişəm ki, öz təhlil gücünü əldən verən xalq aldanacaq və məğlub olacaq. İmam Həsənin (ə) səhabələrinin təhlil gücü yox idi, hadisəni və nə baş verdiyini anlaya bilmirdilər. Əmirəl-Mömininin (ə) qəlbini qan edən şəxslərin hamısı qərəzli deyildilər. Sadəcə Xəvaric kimi onların bir çoxunun təhlil gücləri yox idi. Xəvaricin təhlil gücü zəif idi. Buna görə də bir hiyləgər birisi onları başqa tərəfə yönəltməyə çalışdığı zaman işarəni itirirdilər. Yol gedərkən həmişə göstəricilər diqqət mərkəzimizdə olmalıdır. İşarəni itirsəniz tez səhv edəcəksiniz. **Əmirəl-möminin (ə) buyurur: "Bəsirət və səbr əhlindən başqa heç kəs bu bayrağı götürə bilməz"**[10]

İlk növbədə bəsirət, ayıqlıq, uzaqgörənlik, anlamaq və təhlil gücü, sonra isə səbr, müqavimət və dayanıqlıq lazımdır. İnsan tez yorulmamalıdır, haqq yolu çətin yoldur. (15.04.1991)

Hər kəslə birlik yaratmaq olmaz. Bilməliyik ki, İmam Xomeyninin (r) dünənki düşmənləri bizə qarşı hansı mövqeyi tuturlar. Əgər görsək ki, bizim tutduğumuz mövqe səbəbindən İmperialist Amerika, qəsbkar sionizm, müxtəlif qüdrətlərin muzdurları, İmam Xomeyninin (r), İnqilabın, İslamın müxalifləri və düşmənləri bizi tərifləyir, bizə ehtiram göstərirlərsə tutduğumuz mövqeyə şəkk etməliyik. Bilməliyik ki, düz yol getmirik. Bu, bir meyardır. İmam Xomeyni (r) də dəfələrlə bu məsələyə təkid edib.

İmam Xomeyni (r) buyurardı: "Düşmən bizi tərifləyirsə bilməliyik ki, xəyanətkarıq." Bu, olduqca mühüm məsələdir.

---

[10] Nəhcül-bəlağə 173-cü xütbə

Bəziləri İmamın (r) xəttinin əksinə hərəkət edən, Qüds günü barədə əks mövqe sərgiləyən, Aşurada biabırçılıq edənlərlə birlikdə olandan, onları təriflədikdən və ya onların hərəkətlərinə susandan sonra "biz İmam Xomeyninin tərəfdarıyıq" deyirlər. Bu mümkün deyil və qəbuledilməzdir. Xalq da bunu görür, bilir və yaxşı başa düşür. (04.06.2010)

## 7. Termin düzəltmək və kəlmələrin mənaya dəlalət etməsinə diqqət yetirmək

Hər ümumi hərəkat və inqilabda lazım olan məsələlərdən biri də o hərəkat və inqilabın fikri qaynaqlarına uyğun terminlər düzəltmək və institusionallaşdırmaq lazımdır. Bir yeni fikir (İslam hökuməti, İslam sistemi, İslami oyanış kimi) müzakirə mövzusu olan zaman cəmiyyətə özü ilə birgə yeni məfhum gətirir. Odur ki, hərəkat özünə münasib olan terminlərə sahib olmalıdır. Əgər terminlər yad ideologiyalardan götürülərsə bu iş vəziyyəti gərginləşədirəcək və fikri düzgün çatdırmaq mümkün olmayacaq. Biz xalqmehvərliyi və azadlığı da qəbul edirik, amma liberal demokratiyanı qəbul etmirik. Hərçənd ki, "liberal demokratiya" lüğəvi məna baxımından xalqmehvərlik və azadlıq olsa da, liberal demokratiya insanların arasında bəzi məfhumları ehtiva edir ki, biz o mənalarla müxalifik. Elə ona görə də bu adları özümüzün sağlam, xalis və pak məfhumlarımız üstünə qoymaq istəmirik. Buna görə də biz öz sistemimiz üçün yeni ad qoyuruq. Bu sistemi "İslami xalqmehvərlik" və ya "İslam cümhuriyyəti"adlandırırıq. Bir sözlə yeni və münasib ad seçirik. İstehsal və gəlirlərin düzgün bölünməsi və ümumi gəlirlərin ədalətli şəkildə istifadəsi İslamın ən üstün hədəflərindən biridir, amma "sosializm" terminindən istifadə etmirik. Baxmayaraq ki, sosializmlə məna baxımından eynilik təşkil edir, amma bu terminin daxilində olan bəzi məfhumlarla və tarixdə ona aid olan reallıqlarla razılaşmırıq. Odur ki, biz sağçılar, solçular və bu kimi ideologiyalar

arasında mövcud olan terminlərin yerinə "istikbar"[11], "istizaf"[12], "xalqmehvərlik"[13] kimi terminləri təklif etdik. Əslində biz yox, inqilab bu terminləri gətirdi və şəxslər bu məsələdə qəti təsirə malik deyildi. (14.10.2011)

## 8. Siyasi oyunbazların düşüncələrinə diqqət

Düşmənləri tanımaq lazımdır. Bizim əsas problemlərimizdən biri də budur. Mənim xüsusi insanlar üçün bəsirət məsələsini tez-tez təkrarlamağımın səbəbi də budur. Bəzi vaxtlar düşmənin düşmənçiliyini ikinci dərəcəli məsələ kimi qiymətləndirirlər. Məşrutə məsələsinin əvvəlində olan bəzi böyük alimlər (mən ad çəkmək istəmirəm, hamı onları tanıyır və məşhurdurlar) Qərbin təsirinə düşən və qərb təfəkkürünə məğlub olan o zamanın dırnaqarası ziyalılarının oyunlarını və planlarını görə bilmədilər. Bu hiyləgərlərin Milli Şura Məclisində və öz mətbuatlarında dediyi sözlərin İslamla mübarizə olduğuna diqqət etmədilər və onlarla iş birliyi qurdular. Nəticə bu oldu ki, mərhum şeyx Fəzlullah Nuri kimi bu məsələni anlayan şəxslər onların gözü qarşısında dara çəkildi və bu alimlər də heç bir reaksiya göstərmədilər. Daha sonra şeyx Fəzlullahın dara çəkilməsinə reaksiya bildirməyən şəxslərin özləri də təhqirlərə, işgəncələrə məruz qaldılar və zərbə aldılar. Bunlardan bəziləri canlarını və bəziləri də abırlarını əldən verdilər. Bu, orada baş verən səhvlər idi və biz bu səhvi təkrarlamamalıyıq. (25.02.2010)

---

[11] İstismarçı, kapitalist, tağut, zülmkar, mərur, imperialist, təkəbbürlü kimi sifətləri özündə cəmləyən, Qurandan çıxarış edilmiş termin. (müstəkbir: sifət)

[12] Zəiflətmək, zəif düşürmək mənasında işlədilən və Qurandan çıxarış edilmiş termin. Siyasi, ictimai, əqidəvi, maddi və s. olmaqla bir neçə yerə bölünür. (Müstəzəf: zəif düşürülmüş)

[13] Demokratiyaya alternativ olaraq istifadə olunan və İslami nöqteyi-Nəzərindən xalqın hüquqlarını təmin etmək, insan ləyaqəyinə ehtiram, xalqa qayğı və diqqət göstərmək mənasında istifadə olunan termin.

## 9. Haşiyə və əsas məsələləri bir-birindən ayırmaq

Bir çox hallarda ölkə daxilində bəzi məsələlər ortaya çıxır ki, hamı himmət edib bu məsələnin sorağına getməlidir və ölkədə əsas mövzu bu olmalıdır. Bu an görürsən ki, qıraq-bucaqdan bəzi səslər eşidilir, haşiyə məsələlər ortaya atılır və diqqətlər ona tərəf yönəlir. Bu ona bənzəyir ki, qatar mühüm bir hədəfə doğru hərəkət edir və düzənliyin ortasında haşiyə bir məsələ düzəldərək zehnləri ona məşğul edirlər. Belə hallarda qatarın hərəkəti dayanır və bəzən artıq yola davam etmək imkanı belə olmur. Haşiyə məsələlər ortaya atılmamalıdır. Diqqətli olmaq lazımdır ki, haşiyə məsələlər ictimai rəyi özünə tərəf cəlb edə bilməsin. (21.03.2011)

Əsas məsələləri tanımaq və haşiyə məsələləri əsasa çevirməmək lazımdır. Belə deyil ki, xırda məsələləri müzakirə etmək olmaz. Xeyr, ikinci dərəcəli məsələlər də müzakirə olunmalıdır. Əslində bütün xırda məsələlər müzakirə olunmalıdır. Amma bu xırda məsələlər əsas məsələyə, müvafiq və müxalif mövqe sərgiləməkdə meyara çevrilməməlidir. Müvafiq və müxalif olmaqda əsas meyar haqq olan düz yol, İslam, şəriət, dinə, İmam Xommeyninin (r) arzularına və binasını qoyduğu inqilaba bağlılıq, habelə, müstəkbirlərlə mübarizədir və onlara bədbin olmaqdır. Yəni, düşmənimizin kim olduğunu bilməliyik. Belə olmasın ki, bizimlə bir olan öz qardaşımıza qarşı müxalif olaq, amma qəlbimiz həyazsız düşmənlə bir olsun, ondan kömək istəyək və ona bel bağlayaq. Belə olmamalıdır. (16.09.2010)

## 10. Bütün sözləri, tənqidləri dinləmək və ən yaxşısını seçmək

Söz deyən şəxs hətta sizinlə eyni fikirdə, eyni cərəyanda, eyni cəbhədə (başqa nə ad istəyirsiniz qoyun) olmasa belə qulaq asın. Əgər görsəniz ki, dediyi söz düzdür **“Onlar sözü dinləyər və onun**

**ən yaxşısına tabe olarlar”**[14] ayəsini hakim tutun. Müxtəlif sözləri dinləmək lazımdır. Bundan sonra insan ən yaxşısını seçməlidir, hətta o yaxşı sözü insan sevmədiyi birindən eşitsə belə. Bu, gözəl bir haldır. Bu baş verərsə olduqca təqdirəlayiqdir. Belə olmamalıdır ki, bir insan söz deməyə başlayan kimi elə əvvəldən buna köklənək ki, o şəxs mənim müxalifimdir, sevmədiyim bir qrupun tərkibindədir, deməli nə desə rədd edilməlidir. Düşünürəm ki, buna diqqət etmək olduqca mühüm məsələdir. (24.06.2009)

Tənqid və təxrib (dağıtmaq) arasındakı fərq nədir? Bəzən dağıdıb adı tənqid qoyula, bəzən də tənqid dağıtmaq kimi dəyərləndirilə bilər. Hansının tənqid və hansının dağıtmaq olması aydınlaşmalıdır. Tənqid, məsələdə təcrübəsi olan şəxsin insafa söykənən qiymətləndirməsidir. Eynilə nəqqadlıq[15] kimi. Belə ki, bir zərgərə nəqqadlıq etmək üçün qızıl aparırsınız, o da qızılın əyyarını yoxlayaraq deyir ki, məsələn, bu qızılın əyyarı 20-dir. Yəni zərgər o qızılın 20 əyarını qəbul edir və deyir ki, xalis qızıldan (24 əyar) 4 əyar azdır. Buna deyirlər nəqqadlıq. Bu şəxs həm zərgərdir, həm də nəqqadlıq cihazı var. Amma əgər o qızılı zərgərlikdən anlayışı olmayan bir dəmirçinin yanına aparsanız və o da qızılı bir kənara ataraq “bunun dəyəri yoxdur” deyirsə, bu işin adı zərgərlik və nəqqadlıq olmaz. Birinci, sən dəmirçisən və qızılın qızıl olmasını inkar edirsən. Əyarı 24 olmasa da 20 əyara malikdir, amma sən bunu qəbul etmirsən. Ən əsası isə sən zərgər olmadığın halda niyə qızılı qiymətləndirirsən? (23.08.2008)

## 11. Düşmənin planını tanımaq

Mənim öz əqidə yoldaşlarımdan ciddi şəkildə istəyim budur ki, zehnlərini daha da geniş açsınlar və fikirlərini yaxşı işə salsınlar.

---

[14] Zümər: 18

[15] “Tənqid” və “nəqqad” eyni köklü sözlərdir.

Bilsinlər ki, düşmən kimdir, nə istəyir, hansı planı cızır - ağıl budur. Siz döyüş meydanında atəş açarkən və bombardman edərkən diqqət etməlisiniz ki, hədəfə aldığınız yer dost qüvvələrin mövqeyi olmasın. Nə üçün düşmənin işini öz öhdənizə götürürsünüz?! Niyə düşmən ordusunun əməliyat həyata keçirməsi üçün, onun gələcəyi yolu hamarlayırsınız?! İnsanların siyasi təhlil qabiliyyətinin olmasına bu qədər təkid etməkdə məqsədimiz budur ki, belə səhvlərə yol verməsinlər. Təbii ki, maskalanmış, ikiüzlü-münafiq, üzə çıxmağa cürət edə bilməyən düşmənlər də vardır ki, özlərini sadiq, sağlam və bəzən sadəlövh şəxslərin arxasında gizlədirlər. Onları tanımaq və onlara xəbərdarlıq etmək lazımdır. Bu gün xalqın uzaqgörən, ayıq olmasına, düşməni tanımasına və düşmənin nə etdiyini bilməsinə ölkənin çox ehtiyacı var. (27.09.1998)

Cəmiyyət və fərdlər üçün bəzi uğursuzluqlar və müxtəlif problemlərdə fərdi və ictimai təqsirlərin olmasını şübhəsiz ki, inkar etmirik. Necə ki, Allah Təala buyurur: **“Sənə gələn hər bir yaxşılıq Allahdandır, başına gələn hər bir pislik isə özündəndir.”[16]** Bu aydın məsələdir. Şübhəsiz ki, düşmənin bizə vurduğu zərbəsinin təsiri də özümüzdəndir. Uhud döyüşündə düşmənin vurduğu zərbəyə də müsəlmanlar əslində özləri şərait yaratdılar. Bunda şəkk və şübhə yoxdur. İnsan zərbə almaq istəmirsə sadəcə düşmənin planını görməlidir. Zərbə almamaq üçün diqqət olunması zəruri olan məsələlərdən biri də bizə zərbə vurmaq istəyən düşməni görə bilməkdir. Diqqətli olmalıyıq ki, bizi bu məsələdə qəflətə salmasınlar. Aktiv və xüsusi insanların qəflətə düşdüyü şəraitlərdən biri də düşmənin təbliğatı və daimi təlqin etdiyi zamandır. Təbii ki, bu iş üçün müxtəlif yolları da var. Məsələn “düşmən” deyilən zaman, tez reaksiya göstərərək deyirlər ki, siz bütün problemləri düşmənin boynuna atırsınız. Aydın məsələdir ki, düşmən var, niyə görmürsünüz? (24.09.2009)

[16] Nisa: 79

## b) Qadağalar

### 1. Məsələlərə səthi yanaşmaq

Əmirəlmöminin (ə) buyurur: **“Bəsirətli insan o şəxsdir ki, eşidər, düşünər, baxar və nəticədə görər”[17]**. Yəni bəsirətli olan şəxs ilk öncə eşitməyə çalışmalı və qulağını gələn səslərə bağlamamalı və eşidəndən sonra düşünməlidir. Hər eşidilən sözü tez qəbul etmək və ya rədd etmək olmaz. Bəsirətsizlik uçurumlarında ayağı büdrəyib aşanların çoxunun problemlərindən biri də budur ki, baxmadılar və aydın həqiqətə gözlərini yumdular. İnsan baxmalıdır və baxan insan mütləq görəcəkdir. Biz bəzi hallarda qətiyyən baxmaq istəmirik.

Yolunu itirən insanlar, həqiqətlərə baxmağa razı olmayan şəxslərdir. Mənim məqsədim meydana inadkarlıqla daxil olan məlum olan düşmənlər deyil. O düşməndir və başqa bir şey də gözləmək olmaz. Məqsədim özümüzük – meydanda olan bizlər və sizlər. Əgər bəsirət tapmaq istəyiriksə gözümüzü açmalı və görülməsi lazım olan məsələləri görməliyik. Bəzi şeylər var ki, onlara səthi yanaşsaq və onları görməsək təbii olaraq səhvlər edəcəyik. (28.10.2010)

### 2. “Həqiqət” qondarmaqdan çəkinmək

Uçurumlardan biri də olmayan şeyi həqiqət kimi təsəvvür və qəbul etməkdir. Ölkəmizin, inqilabımızın, xalqımızın qarşısında cəbhə yaradan düşmənlər, saxta “həqiqətlər” düzəldir və onu bizim gözümüzdə həqiqət kimi cilvələndirməyə çalışır. Halbuki, dediklərində heç bir həqiqəti yoxdur. Ehtiyatlı olmalıyıq ki, həqiqəti olmayan məsələdən həqiqət düzəltməyək. Məsələn, biz öz gücümüzü həddindən çox və ya həddindən az görsək səhvə yol verəcəyik. Eynilə düşmənin də gücünü olduğundan az və ya çox bilsək səhvə yol

[17] Nəhcül-Bəlağə 153-cü xütbə

verəcəyik. Bu məsələ, plan cızan düşmənlərin daxil olduğu meydanlardandır. Əgər diqqət etsəniz görərsiniz ki, düşmənlərimiz media təbliğatı vasitəsilə bizim daxili gücümüzü aşağılayaraq zəif göstərməyə çalışırlar. Öz güclərini isə olduğundan daha artıq göstərirlər. Əgər düşmənin gücünü mövcud olandan daha çox hesablasaq və düşməndən daha çox qorxsaq mütləq şəkildə mühasibədə səhvə yol verəcək və nəticədə yolu səhv gedəcəyik. İslam sistemi və İslam inqilabı düşmənlərinin hədəfi budur ki, yolu dalan kimi göstərsinlər. Uçurumlardan biri də budur.

Həqiqətləri görmək məsələsində olan uçurumlardan biri də öz daxilimizə aiddir. Bəzən qəlbi bağlılıqlarımız iflicedici olur. Qəlbi bağlılıqlarımız bəzən həqiqət olmayan şeyləri həqiqət kimi qəbul etməyimizə səbəb olur. Əslində bizim rahatçılıq ardınca olmağımız və maddi məsələlərə bağlılıqlarımız həqiqəti olmayan şeyləri bizə həqiqət kimi təhmil edir. (24.07.2012)

## 3. İnadkarlıqdan çəkinmək

Bəşəriyyətin yetişməsində nəzər sahibi olan əxlaq ustadları deyirlər ki, insanlar irs aldığı xüsusiyyətləri də dəyişmək qabiliyyətinə malikdirlər. Məsələn, anadangəlmə tənbəllik, həsəd, paxıllıq, inadkarlıq və s. xüsusiyyətləri dəyişdirmək mümkündür. Bəzi insanlar inadkardırlar və nə qədər həqiqəti gözünün önündə qoysan da inadkarcasına öz yanlış fikrində israr edirlər. Belə davranış insanı həqiqətdən uzaqlaşdırır. İnadkar insan ilk əvvəldə az da olsa həqiqətin nurunu anlayır və israrının inadkarlıqdan doğduğunu başa düşür. Amma əgər inadkarlıq təkrarlansa bir azacıq qalan həqiqət nuru da sönür. Bundan sonra onda yalançı fikir və əqidə formalaşır. Belə bir şəxs əgər daxilinə müraciət etsə görəcək ki, zehnində olan məsələlər əqidə və ağılının səsi deyil. Sadəcə olaraq inadkarlıq ona həqiqət və mənəviyyat mesajını almağa icazə vermir. İslamın, İslam inqilabının, İmam Xomeyninin (r) göstərişlərinin, xalqın

hüquqlarının və məzlumluğunun önündə dayanaraq inadkarlıq edənlərin, bu inadkarlıqla necə uçuruma yuvarlandığını özünüz gördünüz!... İnadkarlıq özü ilə birgə azğınlıq gətirir və bilin ki, böyük pis xislətlər kiçik səhvlərdən başlayır. (03.02.1995)

Bəzən insan bir söz deyir, bu sözünün üzərində israr etmək istəyir və bu sözündən geri dönməyə çəkinir. Bəzi insanlar var ki, məsələdən xəbərdardırlar, həqiqəti də bilirlər, amma eyni halda düşmən mövqeyinin möhkəmlənməsinə kömək edirlər. (26.10.2010)

## 4. Səfsətədən (məntiqi xəta) çəkinmək

Müxtəlif məsələlərdə, o cümlədən daxili məsələlərdə təhlil zamanı səfsətəyə düçar olmamaq üçün ehtiyatlı olmalıyıq. (09.06.2012)

Sağlam universitet tələbələrindən ibarət cərəyanların, qrupların, elmi və fikri fəaliyyətlərinin kənarında, siyasi təhlil qüdrəti ələ gətirməyə sövq olmaları üçün proqram fikirləşməlisiniz. Siyasi təhlil gücü olmasa, insan düşmənlərin yalan təhlillərinə aldanacaq. Dünyada heç kəs nə xalqa nə də hansısa şəxsə açıq şəkildə gəlib demir ki, mən sənə zülm etmək istəyirəm. Heç zaman bu formada demirlər, siyasi səfsətə ilə elə iş görürlər ki, ona hakim ola bilsinlər. Fəlsəfi səfsətələrdə olduğu kimi elmi gözbağlayıcılıqla (əslində hiylə ilə) qarşı tərəfin zehnini yanlış istiqamətə yönləndirirlər. Bir siyasi səfsətə düzəldərək öz məqsədlərini yürüdürlər. Cavanlarımızın bu səfsətəni tanımaları üçün addım atmalıyıq. Necə ki, məntiq və fəlsəfədə səfsətəni tanımaq bacarıqlardan biridir. Biz cavanlara səfsətəni tanıtmalıyıq ki, səfsətəçilərin yaxasından tuta və ona "atdığın addımın burasında problem və boşluq var" deyə bilsinlər. Siyasi təhlil qüdrəti budur və cavanlarımızda bu qüdrəti yaratmaq lazımdır. (14.08.2006)

## 5. Qərəzdən və birtərəfli yanaşmadan çəkinmək

Bəsirət əldə etmək çətin iş deyil. İnsanın müxtəlif tələlərin, o cümlədən dostluqların, düşmənçiliklərin, nəfsinin və qərəzlərin əsirinə çevrilməyəcəyi qədər bəsirətə ehtiyacı var. İnsan sadəcə baxsa və düşünsə həqiqəti tapa bilər. (26.10.2010)

Təqva, şəxsi məsələlərdə asandır. Amma təqva siyasi, ictimai və ümumi məsələlərdə daha çətin, daha mühüm və eyni zamanda daha təsirlidir. Biz dostlarımıza və düşmənlərimizə qarşı hansı fikirdəyik? Buradadır ki, təqva öz sözünü deyir. Müxalif və düşmən olduğunuz şəxslə necə davranırsınız? Əgər müxalif və düşmənləriniz barəsində çıxaracağınız hökm həqiqətlə uyğun gəlmirsə, bu addım təqva yolundan kənara çıxmaqdır.

Daha öncə qeyd etdiyim ayəni təkrarlamaq istəyirəm: **“Ey iman gətirənlər, Allahdan qorxun və doğru söz söyləyin”[18]**

Tutarlı və düz danışmalıyıq. İnqilabçı, mömin, İmam Xomeynini (r) sevən cavanlara demək istəyirəm ki, danışarkən, yazarkən, əməl edərkən bu məsələyə tam riayət etsinlər. Bizim bir şəxsə müxalif olmağımız, haqqın yolundan çıxmağımıza, haqqını tapdalamağımıza və ona zülm etməyimizə səbəb olmamalıdır. Ümumiyyətlə heç kəsə zülm etmək olmaz. (04.06.2010)

Bəzən dünyada bəzi dəyişikliklərlə qarşılaşsaq da, barəsində qəti şəkildə fikir söyləyə bilmərik. Fərz edək ki, hansısa bir ölkədə iş başına yeni bir hökümət gəlir və ya dünyanın hansısa bir yerində iki cinah arasında ixtilaf yaranır. Bəzən bu hallarda əlində qəti fikir söyləməyə hansısa əsasın və dəlilin olmur. Belə olan halda insan hökm verə bilməz. (22.03.1990)

[18] Əhzab: 70

## 6. İşləri asan tutmamaq

Bizim iki növ maneəmiz var: Daxili və xarici maneə. Daxili maneələr nələrdən ibarətdir? Yəni biz insanların daxilində (istər qərar qəbul edənlərimiz olsun, istərsə də fərdlər, mübarizə meydanına kənardan baxanlar) mövcud olanlar. Daxili maneələr zəifliklərimizdir; Fikri zəiflik, düşüncə zəifliyi, rahattələblik, asan işlərə meyllilik, işləri asan tutaraq çətin tərəflərini görməmək və s. bu kimi kimi zəifçiliklər. Bu xüsusiyyətlər bəzən işlərin həyata keçməsinə mane olan amillərdəndir. İşdən öncə ölçülüb-biçilən plan işin çətinliklərinə uyğun və ya bu çətinliklərə yaxın olmalıdır. İşləri olduğundan daha asan bilmək də həmçinin səhlənkarlıq kimi hədəfə gedən yolda olan maneələrdən biridir. (22.03.1990)

## 7. Rahattələb olmamaq

Bizim daxili problemlərimizdən biri də çətinliklərdən qaçmaqdır. Çətinlikdən qaçmağa yanlış olaraq qurtuluş deyirlər. Afiyət (qurtuluş, salamatlıq, sağlamlıq, nicat tapmaq) ardınca olmaq əslində yaxşı bir şeydir. Bu, Allahın nemətlərindən biridir. Necə ki, duaların birində deyilir: **“Ey afiyət sahibi, səndən dünyada və axirətdə afiyət istəyirik.”** Afiyət istəmək çalışmamaq mənasında deyil. Afiyət - düz addım atmaq, lazım olan yerə qədəm qoymaq, yerində zərbə vurmaq və yerində geri çəkilməkdir. Bəladan qurtuluş, eynilə günahdan qurtuluş kimidir. Rahattələblik və işin çətinliklərdən qaçmaq afiyət deyil. Bunlar bizim daxili zəifliklərimizdir. (03.05.2008)

## 8. Tərəddüd etməmək

Tərəddüd etmək, qəti qərara gələ bilməmək pis xüsusiyyət və təhlükəli amildir. Tərəddüd dəlil-sübutla qane edilən bir xüsusiyyət deyil. Sadəcə muğayat olmaq lazımdır. Əslində bizim hamımız bu təhlükədən ehtiyatlı olmalıyıq. Hər kəs ilk növbədə öz qəlbindən,

daha sonra isə birliklə iş gördüyü və ona bağlı olan şəxslərin qəlbindən müğayət olmalıdır. İmanla, Allaha mərifətlə və aydınlıqla dolu olan qəlbləri heç zaman məğlub etmək və qorxutmaq mümkün deyil. Qorxutmaq, məğlub etmək, təslim etmək üçün, ilk öncə qəlblərdə tərəddüd yaradırlar.

## 9. Əsəbləşməkdən uzaq qalmaq

Möminlər arasında və bizdən İslami davranış tələb olunan cəmiyyətlərdə qəzəb hakim olmamalıdır. Əsəbləşmək insana zərbə vurur. Əsəbi halda qərar qəbul etmək, fikir bildirmək, iş görmək zərərlidir və əksər hallarda insanın səhv etməsinə səbəb olur. Amma təəssüflər olsun ki, bizlər bu yanlış addıma çox düçar oluruq. Əməldə və düşüncədə səhvə düçar olmağın qarşısını almaq təqvanın bərəkətlərindən biridir.